*Vətən bölünməzdir!*



# LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 13-14 (8513) ◉ Şənbə, 15 avqust 2020-ci il ◉ Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ◉ Qiymətı 50 qəpik



## KƏND TƏSƏRRÜFATI MƏHSULLARI İSTEHSALÇILARINA DÖVLƏT BÜDCƏSİ HESABINA VERİLƏN GÜZƏŞTLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, kənd təsərrüfatı texnikasına, texnoloji avadanlığa, suvarma sistemləri və soyuducu anbar dəstlərinə, damazlıq heyvanlara dövlət büdcəsinin vəsaiti hesabına güzəştlərin tətbiqi ilə əlaqədar maliyyə vəsaitinə yaranmış ehtiyacın qarşılanması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə 20,0 (iyirmi) milyon manat ayrılsın.
2. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.65-1-ci bəndində göstərilmiş məbləğdən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə 20,0 (iyirmi) milyon manat ayrılsın.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci və 2-ci hissələrində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyul 2020-ci il.

## AZƏRBAYCAN PREZİDENTİ: "BİZ DOĞMA QARABAĞ TORPAĞIMIZA QAYIDACAĞIQ"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda "Qarabağ" yatağının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib. Mərasimdən sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.

Dövlətimizin başçısının müsahibəsindən bəzi məqamları təqdim edirik.

"Bu gün "Qarabağ" yatağının dəniz işlərinə start verilir. Bu, yatağın işlənilməsində çox önəmli mərhələdir. Bu nəhəng qurğu Azərbaycanda inşa edilibdir. Azərbaycan mütəxəssisləri tərəfindən və bu gün artıq dənizə yola salınır".

"Bizim indi əsas diqqətimiz Cənub Qaz Dəhlizinin başa çatmasına yönəldilib. Bu layihə də uğurla icra edilir. Bunun dördüncü və sonuncu layihəsi olan TAP artıq başa çatmaq üzrədir".

"Bu gün Azərbaycan vaxtilə – 1990-cı illərdə tərk edilmiş Qarabağ yatağına qayıdır və bu nəhəng dayaq bloku bunun əyani sübutudur".

"Bizim ərazi bütövlüyümüz tam bərpa ediləcək, necə ki, bu gün biz vaxtilə tərk edilmiş "Qarabağ" yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

**"Lənkəran"**

## PREZİDENTƏ MİNNƏTDARLIQ MƏKTUBLARI

# “SİZ ZAMANIN SINAĞINDAN LƏYAQƏTLƏ ÇIXMIŞ LİDERSİNİZ”

***Ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə tədbirləri davam etməkdədir. Xəstələrin sayında hər gün azalma müşahidə olunur. Hökumət tərəfindən artıq xüsusi karantin rejiminin yumşaldılması istiqamətində də mühüm addımlar atılır.***

***Təbii ki, xəstəlikdən sağalma hallarının yoluxma hallarını üstələməsini Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin və ölkə səhiyyəsinin böyük qələbəsi hesab etmək olar.***

***Prezidentin təşəbbüsü ilə həm də pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən insanların əmək haqlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılanır. Bu kateqoriyaya aid olan 600 minə yaxın insan bu gün dövlətdən maddi dəstək alır. Dövlət sektorunda işləyənlərin əmək haqları tam ödənilir. Bunlar isə Azərbaycan dövlətinin humanist mahiyyətini göstərir. Bir daha təsdiq olunur ki, Azərbaycan Prezidentinin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır.***

***Son günlər ərzində Azərbaycan Prezidentinə ünvanlanan minlərlə məktub da göstərir ki, xalq dövlət tərəfindən görülmüş bütün bu tədbirləri çox yüksək qiymətləndirir. Təşəkkür məktublarını ünvanlayanlar sırasında Lənkəran rayon sakinlərinin də özünəməxsus yeri var. İnsanların sosial müdafiəsinin daha da gücləndirilməsi ilə bağlı tədbirlər onlar tərəfindən razılıq hissi ilə qarşılanır. Prezidentin rəsmi internet saytına istinadən vətəndaş məktublarından bir qismini dərc edirik.***

**Lənkəran rayonunun Velədi kənd Ağsaqqallar Şurasının sədri Həsənəli Hüseynov** yazır: "Çox hörmətli cənab Prezident. Sizin rəhbərliyinizlə ölkəmizin hər yerində abadlıq, quruculuq işləri aparılır, yollar təmir olunur, asfaltlanır. Çox sağ olun ki, Sizin qayğınızla bu işlər bizim Lənkəran rayonunda da görülür. Rayonumuz çox abadlaşıb. Bununla belə yolların əsaslı təmirinə ehtiyac var idi. Yaşadığımız Velədi kəndinin yolları da yaxşı vəziyyətdə deyildi. Amma, biz ümidimizi üzməmişdik. İnanırdıq ki, Sizin sayəsində bizim yollarımız da bərpa olunacaq. Belə də oldu. İndi bizim kəndin yolları yüksək səviyyədə təmir olunub asfaltlanır. Biz Sizə çox minnətdarıq. Biz Sizdən çox razıyıq. Allah da Sizdən razı olsun".

**Lənkəran rayonunun Velədi kəndindən Günəş Əkbərova, Şəfəq Hüseynova, Naidə Əsədova, İqbal Rzayev və Ülkər Qurbanova** da yol tikintisi ilə bağlı Prezidentə təşəkkürlərini çatdırırlar: "Hörmətli cənab Prezident. Biz Lənkəran rayonunun Velədi kənd orta məktəbinin müəllimləri Sizə müraciət edərək kəndimizi digər kəndlərlə birləşdirən yolun, həmçinin məktəbimizə gələn yolun təmir edildiyinə görə minnətdarlığımızı bildiririk.

Məktəbimizə işləyən müəllimlər, təhsil alan şagirdlər və onların valideynləri artıq rahat, geniş yoldan istifadə edirlər.

Kəndimizdəki yolların təmiri bütün kənd sakinlərinin sevincinə səbəb olub. Bu sevinci bizə yaşatdığınıza görə Sizə "çox sağ olun" deyir, təşəkkür edirik".

Son zamanlar mənfur qonşularımızın qeyri-insani hərəkətləri, cəbhə bölgəsində intensiv olaraq atəşkəsin pozulması, dinc sakinlərimizin, hərbi qulluqçularımızın həyatına qəsd edilməsi faktları Azərbaycan əhalisi tərəfindən qəzəb hissi ilə qarşılanıb. **Lənkəran rayonunun Boladi kənd sakini Elnarə Miriyeva** yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan. İyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan dövlət sərhədində atəşkəsi pozması bizi necə narahat etmişdisə, güclü və rəşadətli ordumuzun, qəhrəman oğullarımızın düşməni cavab atəşi ilə susdurması bir o qədər fərəhləndirdi.



Biz tələbələr Sizə daim inanır, güvənir və yürütdüyünüz siyasəti dəstəkləyirik. Ölkəmizin ərazi bütövlüyünü hər zaman qoruya bilən güclü, sarsılmaz, qüdrətli və rəşadətli ordumuz var. Siz isə xalqın dayağı, onun xoşbəxt gələcəyinin etibarlı qarantısınız. Allah Sizi qorusun, cənab Prezident!"

**Lənkəran rayon sakini Lalə Muradovanın** da ölkə başçısına ünvanladığı məktubda ifadə olunan fikirlər Elnarə Miriyevanınkı ilə eynilik təşkilik edir: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan. Biz hər zaman Sizinləyik, biz hər zaman ordumuzun yanındayıq. Sizin qətiyyətli mövqeyiniz bizi qürurlandırır və biz gənclərdə ruh yüksəkliyi yaradır.

Möhtərəm cənab Prezident, torpaqlarımızın işğaldan azad olunması istiqamətində fəaliyyətinizi dəstəkləyir, bu yolda Sizinlə olduğumuzu bildiririk. Qəlbi daim Vətən eşqi ilə döyünən Liderimiz, Allah Sizi qorusun".

**Lənkəran şəhər sakini Gülnar Mirzəyevanın** məktubunda gələcəyə inam hissi, yüksək əhval-ruhiyyə, ruh coşğunluğu qabarıq hiss olunur: "Möhtərəm cənab Prezident. İnanırıq ki, düşmən ölkənin təxribatının qarşısını Sizin rəhbərliyinizlə alacaq, öz ərazi bütövlüyümüzü təmin edəcəyik. İşğal altında olan torpaqlarımızın geri qaytarılması hər birimizin müqəddəs amalıdır. Bu işdə hər zaman Sizinləyik, canımızdan, qanımızdan keçməyə hazırıq. Düşmən bizim birliyimizin, həmrəyliyimizin qarşısında dayana bilməz. Yaşasın Azərbaycan".

**Lənkəran rayonunun Separadi kənd sakini Gülnar Gülverdiyevanın** məktubunda rəşadətli ordumuz tərəfindən düşmənə verilmiş cavab tədbirləri qürur hissi ilə təqdir olunur: "Hörmətli cənab Ali Baş Komandan. Azərbaycanın Ermənistanla sərhədində təcavüzkar erməni birləşmələri tərəfindən iyulun 12-də törədilən təxribata qəhrəman ordu hissələrimizin layiqli cavab verməsi insanlarımızda böyük ruh yüksəkliyi yaratdı.

Bu günlər Azərbaycan Ordusunun təxribat törədən, dinc sakinləri hədəfə alan azğın düşmən üzərində şanlı qələbəsi kimi tarixə düşdü və xalqımızın heç vaxt erməni işğalı ilə barışmayacağını, ordumuzun isə döyüşə hazır olduğunu göstərdi.

Cənab Prezident, biz gənclər Sizə və şanlı ordumuza güvənirik.

Biz bir yerdə güclüyük. Sizin Vətən uğrunda mübarizəniz müqəddəsdir. Allah Sizə yar olsun".

**Lənkəran rayonunun Zövlə kənd kənd sakini Ələskər Şükürov** yazır: "Hörmətli cənab Prezident. Mən iki zabit atasıyam. Yaşım 65 olsa da, ürəyim ön cəbhədə olmaq, düşmənləri yurdumuzdan qovub çıxarmaq, Qələbə bayrağını dalğalandırmaq arzusu ilə döyünür. O gün mütləq gələcək! O zaman bütün şəhidlərimizin, canını Vətən yolunda fəda etmiş qəhrəmanlarımızın ruhları ağ göyərçinə dönüb Vətən göylərində Qələbə nəğməsi oxuyacaq.

Tovuz döyüşləri göstərdi ki, xalqımız Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış münaqişənin həlli, ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, erməni təxribatlarının qarşısının alınması istiqamətində Sizin yürütdüyünüz siyasəti qətiyyətlə dəstəkləyir. Əli silah tutan vətənpərvər insanlar bu gün özünü Vətənin əsgəri hesab edir və düşmənin ölkəmizə uzanan qanlı əllərini kəsib atmağa hazırdır".

**YAP Lənkəran rayon Təşkilatı Gənclər Birliyinin üzvü Ağakişi Baloğlanlının** məktubundan sətirlər: "Möhtərəm cənab Prezident. Son günlərdə baş verən düşmən təxribatı xalqımızı hiddətləndirmiş, düşmənə olan nifrətimizi daha da artırmışdır. İnanırıq ki, Sizin məqsədyönlü siyasətiniz xalqımızı uğura, zəfərə aparacaq. Dövlətimizin yürütdüyü siyasət bir gün bizə o qələbəni, o sevinci yaşadacaq. Bu müqəddəs yolda həmrəyliyimiz, birliyimiz qarşısında düşmən diz çökəcək".

**Lənkəran şəhər sakini Aysel Hüseynova** yazır: "Hörmətli cənab Prezident. Siz zamanın sınağından ləyaqətlə çıxmış bir Lidersiniz. Bu sınaqlarda xalq Sizin arxanızda, Siz onun yanında olmusunuz.

Haqq mübarizəmizdə də qəsbkar, xəyanətkar erməni faşistləri zaman-zaman Sizin rəhbərliyinizlə layiqli cavablarını alıblar.

Biz Sizin komandanlığınız, rəhbərliyinizlə torpaqlarımızı mənfur düşməndən azad edəcək, bu mübarizədə qalib gələcəyik".

**YAP Lənkəran rayon Təşkilatı Gənclər Birliyinin sədri Teymur Babazadə:** "Möhtərəm cənab Ali Baş Komandan. Sizin rəhbərliyinizlə ordu quruculuğunda aparılmış böyük islahatların nəticəsidir ki, bu gün hər bir azərbaycanlının qürur duyduğu ordusu var. Azərbaycan Respublikası vətəndaşı və ehtiyatda olan əsgər kimi Sizin müvafiq göstərişinizlə hər zaman əldə silah Vətənin müdafiəsinə hazıram".

**Lənkəran şəhərindən Kamran Kazımov:** "Möhtərəm Prezident, cənab Ali Baş Komandan. Son günlər Ermənistan-Azərbaycan sərhədində baş vermiş gərginlik və daxildə bir neçə müxalif ünsürlərin lazımsız hərəkətləri Lideri olduğunuz Azərbaycan xalqının mübarizliyini sarsıda bilməz.

60 yaşımın olmasına baxmayaraq, bir elm və təhsil işçisi kimi bəyan edirəm ki, apardığınız siyasətə sadiq olaraq, bir müsəlləh əsgər kimi silaha sarılıb erməni təcavüzkarlarını işğal olunmuş torpaqlarımızdan təmizləməyə hazıram. Apardığınız dövlət siyasətini də həmişə dəstəkləyirəm".

**"Lənkəran"**

# İCRA BAŞÇISI ONLAYN MÜŞAVİRƏLƏR KEÇİRİB






İyulun 21-də Lənkəran Şəhər İcra Hakimiyyətində növbəti onlayn müşavirə keçirilib. Müşavirədə rayonun inzibati ərazi dairələrindəki nümayəndələr, bələdiyyə sədrləri və koronavirusa qarşı mübarizə ilə əlaqədar yaradılmış qərargah üzvləri iştirak ediblər.

Müşavirəni açan İcra başçısı Taleh Qaraşov koronavirusla bağlı ümumilikdə ölkədə və Lənkəranda həyata keçirilən kompleks tədbirlərin müsbət nəticələri barədə geniş danışıb.

Natiq karantin rejiminin təsirinə baxmayaraq rayonun sosial-iqtisadi və təsərrüfat həyatında işlərin normal şəkildə davam etdiyini, bir neçə yol layihəsinin icra olunduğunu, xüsusilə 35 minə yaxın əhalinin yaşadığı 16 yaşayış məntəqəsində ümumi uzunluğu 38,6 km olan yolların asfaltlanma işlərinə başlanıldığını, kənd təsərrüfatı sahəsində işlərin davam etdiyini söləyib.

Natiq əldə olunmuş uğurları cənab Prezident İlham Əliyevin və birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkə vətəndaşlarının COVİD-19 pandemiyasının dəhşətli təsirindən qorumaq üçün göstərdikləri ciddi səylərin məntiqi nəticəsi kimi dəyərləndirib.

İcra başçısı pandemiya dövründə rayonun bütün əlaqədar təşkilatlarının, xüsusilə İcra hakimiyyəti strukturlarının, hüquq-mühafizə orqanlarının, tibb personalının, mobil qrupun üzvlərinin fədakar fəaliyyətini və ictimaiyyətin ümumi səyi ilə rayonda karantin qaydalarına ciddi şəkildə əməl olunmasını yüksək qiymətləndirməklə təhlükənin sovuşduğunu düşünərək arxayınlaşmağın və qaydalara riayət etməməyin yeni pandemiyalara səbəb ola biləcəyini, artıq bəzi ölkələrdə belə acı nəticələrə səbəb olmuş təcrübəyə rast gəlindiyini xüsusi vurğulayıb.

Natiq qeyd olunanları ümumiləşdirərək koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinin, bununla bağlı yerlərdə izahat-təbliğat işlərinin bundan sonra da davam etdirilməsinin zəruriliyini qeyd edib.

***

Avqustun 10-da Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov inzibati ərazi dairələrindəki nümayəndələr, bələdiyyə sədrləri və aidiyyəti təşkilatların rəhbərlərinin iştirakı ilə növbəti videogörüntülü müşavirə keçirib.

Müşavirədə rayonda koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinin gedişi, çimərliklərdə təhlükəsizlik və sanitariya qaydalarına əməl olunması vəziyyəti geniş müzakirə olunub.

Müşavirədə çıxış edən İcra başçısı rayonda koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinin davam etdirilməsinin, ev şəraitində müalicə alan koronavirus xəstələrinin nəzarətsiz qaydada sərbəst hərəkətinə imkan verilməməsinin vacibliyini diqqətə çatdırıb.

Natiq çimərlik mövsümünə icazənin verilməsi ilə əlaqədar dənizsahili ərazilərdə sanitariya-epidiomoloji vəziyyətin daim nəzarətdə saxlanılmasını, bununla əlaqədar yaradılmış komissiyanın fəaliyyətinin gücləndirilməsini, sanitariya normalarının pozulması hallarına qarşı sərt cəza tədbirlərinin görülməsini tövsiyə edib.

Əlaqədar məsul şəxslərdən qeyd olunanlara ciddi şəkildə əməl olunmasını tələb edən İcra başçısı eyni zamanda rayon ictimaiyyətini bir daha ölkə vətəndaşlarını koronavirus infeksiyasından qorunmaq məqsədilə dövlət səviyyəsində qəbul edilən qərarların icrasında yaxından iştirak etməyə, tibbi-mühafizə vasitələrindən, maskalardan istifadə etməyə, təmas zamanı sosial məsafəni gözləməyə çağırıb.

"Lənkəran"

# İCRA BAŞÇISI SEPARADİ KƏNDİNDƏN KEÇƏN ULUMÇAYDA SAHİLBƏRKİTMƏ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLUB

Avqustun 6-da Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov rayonun Separadi kəndi ərazisindən keçən Ulumçayda sahilbərkitmə işlərinin gedişi ilə tanış olub.

Tikintini aparan "Lənkəran Su Tikinti" (LST) MMC-nin direktoru Həsənağa Ələkbərov icra başçısına məlumat verərək bildirib ki, burada təmir-bərpa işlərinə cari ilin mart ayından başlanılıb.

Qeyd olunub ki, daşqınlar nəticəsində çayın istinad divarları aşınmaya məruz qaldığından ətraf yaşayış məntəqələri sel suları təhlükəsi ilə üzləşib. Şəhər İcra Hakimiyyətinin biləvasitə müraciəti ilə hökumət tərəfindən çayda sahilbərkitmə işlərinin aparılmasına lazımi vəsait ayrılıb.

Tikinti briqadasının səyləri nəticəsində obyektdə indiyədək 520 metr məsafədə hündürlüyü 7 metrlik dəmir-beton mühafizə divarları olmaqla təmirbərkitmə işləri yekunlaşdırılıb. Tikintinin bundan sonra da davam etdirilməsi nəzərdə tutulub.

İcra başçısı T.Qaraşov mövcud pandemiya dövründə ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət edən belə bir işin vaxtında icra olunmasından məmnun qaldığını bildirərək inşaatçılara təşəkkürünü çatdırıb və eyni zamanda inşaat işlərinin bundan sonra da yüksək səviyyədə davam etdirilməsi üçün müvafiq tapşırıq və tövsiyələrini verib.

İcra başçısının Separadi kənd ərazi vahidliyi üzrə nümayəndəsi Ağahüseyn Hüseynov, kənd ağsaqqalları və ziyalıları onları sel təhlükəsindən xilas etdiyi üçün Azərbaycan Prezidenti cənab İlham Əliyevə, ŞİH-nin rəhbərliyinə minnətdarlıqlarını çatdıraraq dövlət siyasətini ürəkdən bəyəndiklərini, xüsusilə ölkədə koronavirus pandemiyası ilə mübarizə məqsədilə həyata keçirilən məqsədyönlü tədbirləri təqdir etdiklərini bildiriblər.

"Lənkəran"





# İCRA BAŞÇISI SİTRUS PLANTASİYASINDA





Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası istiqamətində Lənkəran rayonunda həyata keçirilən tədbirlər sırasında kənd təsərrüfatı işləri üstünlük təşkil edir. Prezident İlham Əliyevin davamlı diqqət və qayğısı ilə ötən dövrdə rayonda aqrar sahədə köklü müsbət dəyişiklərə yol açan iri investisiya layihələri icra olunub, əkin sahələri genişləndirilərək məhsul istehsalı artıb, kəndlərdə yeni iş yerləri açılıb, kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirləri çoxalıb.

Bu inkişafın bəhrələrini rayonda xüsusilə çayçılıq, çəltikçilik və sitrusçuluq sahəsində aydın görmək olar. Lənkəranda keçirilmiş çayçılıq, çəltikçilik və sitrusçuluğun inkişafı məsələlərinə dair müşavirənin və müşavirədən sonra sözügedən sahələrin inkişafı ilə bağlı qəbul edilən Dövlət proqramlarının icrası istiqamətində görülən işlərin nəticələri bu gəlirli sahələrin gələcək inkişafı üçün yeni perspektivlər açıb.

Lənkəran rayonunda sahibkarlığın inkişafına göstərilən diqqət, iş adamları üçün yaradılan əlverişli biznes mühiti və təbii ehtiyatlar yerli sahibkarlarla yanaşı, xarici investorların da diqqətini cəlb edib, nəticədə çayçılıq və çəltikçiliklə bərabər, sitrusçuluğun inkişafına da investisiya qoyuluşuna güclü təkan verib.

Bu sahədə görülən uğurlu layihələrdən biri də rayonun Separadi kəndində yeni salınan "Lenkfruit" sitrus təsərrüfatıdır. İş adamı Azər Qurbanov tərəfindən rayonun Separadi kəndi ərazisində istifadəsiz qalmış torpaq sahəsində ümumi həcmi 10,7 milyon manat olan layihə çərçivəsində limon, portağal və qreyfrut bitkilərindən ibarət sitrus bağı salınıb. Ərazidə Türkiyədən gətirilmiş 135 min ədəd ting əkilib, damcı üsulu ilə işləyən suvarma sistemi və ölkədə ilk dəfə olaraq qış mövsümündə sitrus plantasiyası ərazisində şaxtanı 10 dərəcə aşağı salacaq, dəyəri 2 milyon 200 min dollar olan "Donqoruyan Pərvanə" ("Frost Guard") tipli xüsusi avadanlıq quraşdırılıb.

Bundan əlavə, şirkət rayonun Şağlaser kəndində Türkiyədən gətirilmiş məhsuldar qoz tinglərindən ibarət 4 hektar sahədə bağ salıb. Hazırda təsərrüfatda 120 nəfər yerli sakin çalışır.

Qeyd edək ki, bu günlərdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov "Lenkfruid" sitrusçuluq təsərrüfatına baş çəkərək iş adamı və fəhlələrlə söhbət edib, eyni zamanda təsərrüfatda görülən işlərin gedişi ilə maraqlanıb. Görüş zamanı İcra başçısına plantasiyada həyata keçirilən mövsümü tədbirlər, problem və qayğılar barədə ətraflı məlumat verilib, koronavirus pandemiyası şəraitində onlar üçün yaradılmış hərtərəfli şəraitə görə minnətdarlıq hissi ifadə olunub.

**"Lənkəran"**



# LƏNKƏRANDA "XƏZƏR GÜNÜ"

"Xəzər günü" ilə əlaqədar Lənkəran Şəhər İcra Hakimiyyətinin aidiyyəti qurumlarının və 1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin birgə təşkilatçılığı ilə Xəzər dənizinin Lənkəran sahili zolağında iməclik keçirilib. Tədbirə rayonun gənc könüllüləri də qatılıblar.

İməclik zamanı Xəzər dənizinin sahilində yerləşən çimərlik sahələrinə atılmış bərk məişət tullantıları, xüsusilə də plastik qablar və polietilen torbalar ərazidən təmizlənib.

Ümumilikdə 100 nəfərin iştirak etdiyi ekoloji aksiya zamanı çimərlik sahəsində yerləşən istirahət mərkəzləri ilə də zəruri maarifləndirmə söhbətləri aparılıb.

Xatırladaq ki, 12 avqust 2006-cı il tarixindən Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası qüvvəyə mindikdən sonra hər il avqustun 12-si "Xəzər günü" kimi qeyd olunur.

**"Lənkəran"**

# LƏNKƏRANDA YOL İNFRASTRUKTURUNUN YENİLƏNMƏSİ İSTİQAMƏTİNDƏ ARDICIL TƏDBİRLƏR GÖRÜLÜR

Azərbaycanda regionların sosial-iqtisadi inkişafını şərtləndirən strateji əhəmiyyətli faktorlardan biri infrastruktur quruculuğunun ardıcıl şəkildə davam etdirilməsidir. Bu baxımdan, ölkəmizdə yol infrastrukturunun yenilənməsi istiqamətində də işlər uğurla həyata keçirilir. Bu kontekstdə görülən tədbirlər dövlətin məqsədyönlü sosial siyasət kursunun tərkib hissəsi olmaqla yanaşı, həm də ölkənin sürətli iqtisadi inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Xüsusi olaraq vurğulamaq gərəkdir ki, dövlət başçısının müvafiq sərəncamlarına əsasən vətəndaşların rahat gediş-gəlişinin təmin olunması, yük və sərnişindaşımanın rahatlaşması ilə bərabər bölgələrdə kənd təsərrüfatı, turizm və sənayenin birbaşa inkişafına səbəb olacaq irimiqyaslı yol infrastrukturu layihələrinin icrası istiqamətində Lənkəranda da məqsədyönlü işlər görülməkdədir.

Koronavirus pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq iki aya yaxındır ki, rayonun ayrı-ayrı yaşayış məntəqələrində ümumi uzunluğu 38 kilometr olan yolun asfaltlanmasına başlanılıb. Yol təmiri işləri 16 yaşayış məntəqəsində həyata keçirilməklə, ümumilikdə, 40 minə yaxın sakinin rahat gediş-gəlişi üçün gözəl şərait yaradacaq.

Hazırda şəhərə ən yaxın olan Sütəmurdov, Velədi, Gərmətük kəndlərində əsas hərəkət yollarına asfalt döşənir. Ərazidə xeyli sayda texnika çalışır. Yol boyu suötürücü qurğular təmizlənir, abadlıq işləri görülür.

48 saylı Yol İstismar MMC-nin direktoru Çingiz Əkbərov bildirib ki, asfalt 2 qat olacaq: "Yolu qısa müddətdə istifadəyə vermək niyyətindəyik. Hazırda Sütəmurdov, Velədi, Gərmətük kəndlərində sürətli iş gedir. Buraya təxminən 120 texnika və 150 nəfər işçi qüvvəsi cəlb olunub".

Yerli sakinlər dünyada koronavirus pandemiyası ilə əlaqədar durğunluğun yaşandığı bir dövrdə ölkəmizdə həyata keçirilən belə layihələri minnətdarlıqla qarşılayırlar.

Gərmətük sakini İbrahim Cabbarov: "Yollarımıza asfalt döşənməsi bizi çox sevindirir. Yol çəkmək bir mədəniyyətdir. Bu, rahatlıq, abadlıq deməkdir. Dövlətimiz sağ olsun ki, dünyada iqtisadi tənəzzül olsa da, ölkəmizdə sosial layihələri davam etdirir, insanların rifahı yaxşılaşdırılır".

Digər sakin Savalan Məmmədzadə isə deyir ki, uşaqlar məktəbə gedib-gələrkən çox əziyyət çəkirdilər. "Yollar palçıq olurdu, geyimləri tez çirklənirdi. Şükür olsun ki, bundan sonra uşaqlar qış fəslində gediş-gəlişdə çətinliklə üzləşməyəcək. İndi vətəndaşlarımız, bütün kənd əhalisi çox sevinir. Sağ olsun dövlətimizin başçısı, yolları təmir etdirir", – deyə o bildirib.

Qeyd edək ki, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov görülən işlərlə yerindəcə tanış olmaq üçün yol çəkilən ərazilərdə olub. Sakinlər onların müraciətlərinə həssaslıqla baxılmasına görə Prezident İlham Əliyevin ünvanına xoş sözlər və minnətdarlıq ifadə etməklə icra başçısına təşəkkürlərini çatdırıblar.

T.Qaraşov koronavirus pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, ölkənin hər yerində olduğu kimi, Lənkəran rayonunun sosial-iqtisadi inkişafı sahəsində də işlərin uğurla davam etdirildiyini, çox mühüm sosial əhəmiyyətli layihələrin icra olunduğunu söyləyib. İcra başçısı qeyd edib ki, əhalinin istək və arzularını reallaşdıran layihələr arasında yol infrastrukturunun yaxşılaşdırılması, yolların əsaslı təmiri və asfaltlanması ilə bağlı layihələr üstünlük təşkil edir.

Onu da əlavə edək ki, bundan əvvəl Lənkəran və Liman şəhərlərində daha 8 küçə, Haftoni qəsəbəsini Ləj kəndi ilə birləşdirən yollar da yüksək səviyyədə təmir olunaraq asfalt örtüyü çəkilib.

**"Lənkəran"**





# LƏNKƏRANDA ƏLİLLİYİ OLAN ŞƏXSLƏR ÜÇÜN REGİONAL BƏRPA MƏRKƏZİ İSTİFADƏYƏ VERİLİB





Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Lənkəran şəhərindəki Əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Mərkəzin açılışında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri Cavid Əbdül-Qədirov, Lənkəran şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Möhübbət Babayev, mərkəzin əməkdaşları və əlilliyi olan şəxslər iştirak ediblər.

Çıxışı zamanı Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri C.Əbdül-Qədirov əlilliyi olan şəxslərin, tibbi-sosial reabilitasiya imkanlarının artırılmasının Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin mühüm tərkib hissəsi olduğunu bildirib. O, dövlət başçısının tapşırığına əsasən, ölkədə reabilitasiya infrastrukturunun müasirləşdirilməsi və genişləndirilməsi istiqamətində aparılan işləri diqqətə çatdırıb. 2019-cu ilin axırlarında Yevlax və Naftalan Əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzləri, Mərdəkan Əlilliyi olan şəxslər üçün Müalicə Pansionatı, Protez-Ortopedik Bərpa Mərkəzinin əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verildiyini və onların hər birində yüksək səviyyəli reabilitasiya şəraiti yaradıldığını qeyd edib.

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Möhübbət Babayev çıxışında vurğulayıb ki, pandemiya dövründə belə mühüm əhəmiyyətli obyektin istifadəyə verilməsi böyük nailiyyətdir. Bu, bir daha onu göstərir ki, dövlətimiz ən çətin şəraitdə də öz vətəndaşının yanındadır, onun problemlərinin həlli istiqamətində əlindən gələni əsirgəmir.

Tədbirdə əlilliyi olan şəxslər onlara yönələn sosial müdafiə tədbirlərinin gücləndirilməsinə, reabilitasiya infrastrukturunun müasir tələblərə uyğun qurulması və bərpa imkanlarının artırılması sahəsində görülən mühüm işlərə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

Sonra mərkəzdə yaradılan şəraitə baxış olub.

Məlumat üçün bildirək ki, yeni istifadəyə verilən müəssisədə Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad və Biləsuvar rayonları üzrə il ərzində 350 əlilliyi olan şəxsə effektiv fizioterapevtik üsulların tətbiqi əsasında tibbi-sosial reabilitasiya xidmətləri göstəriləcək. Mərkəz limfodrenaj, ozonoterapiya, maqnitoterapiya, hidroterapiya və digər yeni müasir tibbi-reabilitasiya aparatları və avadanlıqlarla da təchiz edilib.

**"Lənkəran"**



# VƏTƏNPƏRVƏRLİK MÖVZUSUNDA ONLAYN TƏDBİR

Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "Gənclərin vətənpərvərlik ruhda tərbiyəsi və informasiya müharibəsi şəraitində adekvat davranışın vacibliyi" mövzusunda onlayn tədbir keçirilib.

Onlayn tədbirdə Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin rəisi Mikayıl Cəfərzadə, Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri Ülviyyə Əliyeva, Ombudsmanın Cəlilabad Regional Mərkəzinin rəhbəri Ziya İsmayılov, Gənclərin İnkişaf və Karyera Mərkəzinin rəhbəri Famil Məmmədov, Lənkəran Peşə Liseyinin direktoru Afər Kərimov və başqaları mövzu ilə bağlı çıxış ediblər.

Səksən nəfər gəncin qatıldığı onlayn tədbirdə çıxış edənlər Prezident İlham Əliyevin çağırış və tövsiyələrinə uyğun olaraq bu gün müharibə şəraitində olan Azərbaycan Respublikasının dövlət maraqlarının qorunmasında və ölkəmizin taleyüklü məsələlərinin həllində hər bir vətəndaşın aktiv şəkildə fəal iştirakının vacibliyini bildiriblər.

Çıxış edənlər, həmçinin böyüməkdə olan gənc nəslin milli ruhda tərbiyə olunması, onlara vətənpərvərlik hisslərinin daha dərindən aşılanmasının hər zaman dövlət siyasətimizin ən öndə vəzifələrdən biri olduğunu diqqətə çatdırıblar.

Onlar gənclərə çağırış edərək qeyd ediblər ki, sosial şəbəkələrdə ölkəmizin maraqları naminə çağırışlarda, eləcə də Gənclər və İdman Nazirliyinin, "Virtual Qarabağ" İnformasiya Kommunikasiya Texnologiyaları Mərkəzinin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı torpaqlarımızın işğal faktı ilə əlaqədar təbliğat kampaniyasında fəal iştirak etsinlər.

**"Lənkəran"**

# BÖYÜK VƏTƏN MÜHARİBƏSİ VETERANLARINA ƏRZAQ SOVQATLARI PAYLANILIB

Koronavirus (COVID-19) pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması üçün ölkə rəhbərliyi tərəfindən reallaşdırılan genişmiqyaslı tədbirlər çərçivəsində 245 nəfər müharibə veteranına iyulun əvvəlindən ərzaq yardımları paylanılır. Aksiyanın məqsədi koronavirusun yayıldığı dövrdə yaşayışında çətinlik yaranan və ehtiyacı olan veteranlara dəstək göstərməkdir.



Aksiya çərçivəsində Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının, müvafiq rayon icra hakimiyyətlərinin və rayon veteranlar təşkilatlarının nümayəndələrinin iştirakı ilə Lənkəran, Masallı, Astara, Lerik, Yardımlı, Cəlilabad, həmçinin Salyan və Neftçalada yaşayan İkinci Dünya müharibəsi veteranlarına və onların ailələrinə ərzaq məhsullarından ibarət sovqatlar çatdırılıb.

Veteranlarla görüşlərdə ölkəmizdə tətbiq edilən xüsusi karantin rejiminə ciddi əməl olunmasının, zərurət yaranmadan digər şəxslərlə təmas qurulmamasının və virusun yayılmasının qarşısının alınmasına dəstək olacaq şəxsi gigiyenik qaydalara riayət edilməsinin vacibliyi vurğulanıb.

Çıxış edənlər Təşkilatın sədri general-polkovnik Tofiq Ağahüseynovun adından veteranları həmrəylik və xeyirxahlıq kimi mənəvi keyfiyyətlərin təcəssümünü tapdığı müqəddəs Qurban bayramı münasibətilə təbrik edib, onlara və ailələrinə cansağlığı, xoşbəxtlik arzulayıblar.

Respublika Veteranlar Təşkilatının nümayəndələri ilə görüşən rayon icra hakimiyyətlərinin rəhbər şəxsləri koronavirus pandemiyasının yayıldığı çətin dövrdə müharibə veteranları üçün başladılan yardım aksiyasını yüksək dəyərləndiriblər. Qurban bayramının insanları mərhəmətə və mənəvi saflığa ruhlandıran dəyərli adət-ənənələrimizdən biri olduğu qeyd edilib.

Xatırladaq ki, təşkilat "Evdə qal, həyatları xilas et!" çağırışı ilə veteranlara müraciət edərək, onları və əhalini vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət olunmasını tövsiyə edib. Bildirilib ki, Prezident İlham Əliyev hər bir veteranın Vətən qarşısındakı xidmətlərini daim yüksək qiymətləndirir. Koronavirus pandemiyasının bütün dünyanı bürüdüyü vaxtda dövlətimizin başçısı tərəfindən atılmış qabaqlayıcı addımlar nəticəsində ölkəmiz bu bəladan cüzi itkilərlə çıxmaq üzrədir.

Aksiya Təşkilatın sədri general-polkovnik Tofiq Ağahüseynovun təşəbbüsü ilə həyata keçirilir. "Biz birlikdə güclüyük!" çağırışına əsasən keçirilən aksiya Bakının rayonlarını da əhatə edəcək.

**"Lənkəran"**

# LƏNKƏRANDA YENİ MƏKTƏB BİNALARI




Son illər Lənkəranda 50-dən çox yeni məktəb binası tikilib. Hazırda rayonda 4 yeni məktəb binasının tikintisi və 2 məktəb binasının əsaslı təmir-bərpa işləri davam etdirilir. Bu il istifadəyə veriləcək məktəblərdən üçü rayon mərkəzinə yaxın olsa da, biri ucqar dağ kəndində yerləşir.

Təhsilin keyfiyyətinin artırılması və savadlı gələcəyin təmin olunması üçün respublikamızda yeni məktəb binalarının tikintisi işi sürətlə aparılır, ucqar kəndlərdə yeni təhsil ocaqları inşa olunur, qəzalı məktəblər isə əsaslı təmir edilir. Ölkəmizin bütün bölgələrini əhatə edən bu proses Lənkəranda da uğurla aparılır. 2003-cü ildən bəri Lənkəranda, ümumilikdə, 50-dək məktəb üçün yeni binalar tikilib, təmir-bərpa işləri aparılıb.



Lənkəran Şəhər Təhsil Şöbəsinin müdir müavini Güloğlan Bağırov bildirib ki, dünyada hazırkı pandemiya dövründə, inkişaf etmiş ölkələrin problemlər içərisində çabaladığı şəraitdə Azərbaycanda bütün dövlət proqramları uğurla həyata keçirilir. Məktəblərin, təhsil müəssisələrinin təmiri və tikintisi də onlardan biridir. Lənkəranda bu cəhətdən diqqətəlayiq işlər görülür. Belə ki, 2019-2020-ci tədris ilindən Lənkəranda 4 məktəb binasının tikintisinə başlanılıb. Bir modul tipli məktəb binasının tikintisi başa çatdırılıb. Bütün bu işlər Lənkəran təhsilinə böyük diqqətin göstəricisidir. Yeni məktəblərin inşası on minlərlə şagirdin təhsil şəraitinin yaxşılaşdırması deməkdir.

Rayonun dağlıq kəndində yerləşən 264 şagird yerlik Gəgiran kənd orta məktəb binasının tikintisinə ötən ilin iyul ayından başlanılıb. 1972-ci ildə tikilmiş köhnə bina sökülüb və yerində 3 mərtəbədən ibarət bina inşa olunub. Hazırda rayonda 632 şagird yerlik Haftoni, 420 şagird yerlik Nərimanabad qəsəbə və 360 şagird yerlik Viravul kənd 2 nömrəli tam orta məktəbləri üçün tikilən binalarda son tamamlama işləri görülür. Rayonda qəzalı vəziyyətdə olan məktəblərin yerində müasir standartlara cavab verən təhsil ocaqlarının inşası valideynlərin böyük sevincinə səbəb olub. Təhsil sahəsində aparılan bu işlər sakinlər tərəfindən rəğbətlə qarşılanır.

Haftoni qəsəbə sakini Qismət Əmirov deyir ki, Haftoni qəsəbəsində yerləşən məktəb binası ötən əsrin ortalarında tikilmiş bina idi və müasir tələblərə cavab vermirdi: "Otaqlar dar idi, qışda soyuq, yayda isə çox isti olurdu. Tədris üçün yararsız idi. Qəsəbəmizdə yeni məktəb binasının tikilməsinə ehtiyac var idi. Mən yeni məktəb binasının tikilməsinə görə Haftoni qəsəbə sakinləri adından, valideynlər adından dövlətimizin başçısına təşəkkür edirəm".

Viravul kənd sakini Mətanət Quliyeva isə bildirib ki, uzun illərdir uşaqlar yararsız şəraitdə təhsil alırdılar: "İndi pedaqoji kollektivimiz, kənd sakinlərimiz çox sevinirlər. Biz çoxdan arzu edirdik ki, övladlarımız belə gözəl məktəbdə, müasir şəraitdə təhsil alsınlar".

Bu günlərdə 1076 şagird yerlik şəhər 7 nömrəli və 640 şagird yerlik Zövlə kənd tam orta məktəblərində də əsaslı təmir-bərpa işlərinə start veriləcək. Hazırda binalarda söküntü işləri aparılır. Ucqar kəndlərdə isə modul tipli məktəb binaları quraşdırılır. Binaların yeni tədris ilində istifadəyə verilməsi nəzərdə tutulur.

**"Lənkəran"**

# LƏNKƏRANLI ALİMLƏR BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK EDİBLƏR

Ukraynanın Xerson Dövlət Aqrar Universitetinin "İqlim dəyişikliklərinin yer ərazilərinin məkan inkişafına təsiri: nəticələri və həlli yolları" mövzusunda keçirdiyi III Beynəlxalq elmi-praktik konfransda AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin əməkdaşları da iştirak ediblər.

Onlayn beynəlxalq konfransda Lənkəran Regional Elmi Mərkəzin direktoru, aqrar elmlər doktoru, professor Fərman Quliyevin və fəlsəfə doktoru Xalıqverdi Babayevin məqalələri təqdim olunub.

Professor Fərman Quliyevin L.Hüseynovla birlikdə hazırladığı məqalədə Azərbaycanda şabalıdı torpaqlarda yetişdirilən narın əsas xəstəliklərindən bəhs edilir.

Mərkəzin baş elmi işçisi, fəlsəfə doktoru Xalıqverdi Babayevin məqaləsində isə Lənkəran rayonunun yamacvari torpaqlarının eroziyadan qorunması tədbirləri və U.Məmmədovla birlikdə məqalələri də konfransın toplusuna daxil edilib.

Qeyd edək ki, beynəlxalq konfransın keçirilməsində məqsəd ekologiya ilə bağlı aktual problemlərin mümkün həll yollarını hərtərəfli müzakirə etmək və iqlim dəyişikliyinin yer ərazilərinin məkan inkişafına istiqamətini müəyyənləşdirmək, müxtəlif ölkələrin alimləri arasında əlaqə yaratmaq, tədqiqat təcrübəsi mübadiləsi və tədqiqat nəticələrini dərc etməkdir.

Məqalə müəllifləri beynəlxalq konfransın sertifikatına layiq görülüblər.

**"Lənkəran"**

# RUSİYANIN "MİR-24" TELEKANALI LƏNKƏRAN REGİONAL ELMİ MƏRKƏZDƏN VERİLİŞ HAZIRLAYIB

Rusiyanın "MİR-24" telekanalı AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin təcrübə sahəsindən geniş veriliş hazırlayıb. Telekanalın əməkdaşı Kamran Hüseynovun hazırladığı verilişdə Azərbaycanda ekzotik meyvə olan quayavanın yetişdirilməsi, bitki üzərində aparılan elmi-tədqiqat işləri haqda danışılıb.

Bildirilib ki, "tropiklərin alması" adlandırılan bu meyvə indiyə qədər ölkənin yalnız Lənkəran-Astara bölgəsində yetişdirilir.

Həyatını çay və sitrus bitkilərinin öyrənilməsinə həsr edən Lənkəran Regional Elmi Mərkəzinin direktoru, professor Fərman Quliyev bitki üzərində aparılan araşdırma barədə ətraflı məlumat verib. O, bu bitkini 2003-cü ildə İrandan gətirildiyini bildirib.

Professorun apardığı elmi-tədqiqat işləri Lənkəran-Astara bölgəsindəki aqroiqlim şəraitinin bu tropik-subtropik meyvənin yetişdirilməsinin mümkünlüyünü üzə çıxarıb: "Quayavanın vətəni Meksika, Peru adlandırıla bilər. Oradan başqa ölkələrə – Hindistana və digər Asiya ölkələrinə yayılıb. Bu bitki isti havanı sevir. Lənkəranda da subtropik iqlim var. Yerli torpaq quayava növlərindən biri – adi quayava və ya Psidium üçün əlverişlidir", – deyə Lənkəran Regional Elmi Mərkəzinin direktoru bildirib.



Diqqətə çatdırılıb ki, bitkinin yaxşı inkişafı üçün ideal temperatur 18-25 dərəcədir. Meyvələr əkildikdən iki-üç il sonra meyvə verir, sentyabr ayından yığılmağa başlanır.

F.Quliyev bu bitkinin xüsusiyyətləri barədə də məlumat verib: "Quayavanın bir hektarından 50 tona qədər məhsul götürmək olar. Bitki mənfi 5 dərəcəyə qədər şaxtaya dözür. Ancaq son 10 ildir ki, bölgəmizdə qış isti keçir. Rütubəti çox sevir, buna görə yağışlar da ona zərər vermir. Yeri gəlmişkən, iqlim vəziyyəti bitkinin boy atmağına da təsir göstərir. Vətənində bitkinin hündürlüyü 20 metrə çata bilər. Ancaq, bizim ölkədə ən yüksək halda 6 metrədək böyüyə bilər."

Verilişdə çıxış edən Lənkəran Regional Elmi Mərkəzin əməkdaşı Elnarə Şahmarova bitkiyə qulluq barədə ətraflı danışaraq bildirib ki, yerli iqlim şəraiti quayavanın həm çöldə, həm də ev şəraitində yetişməsinə imkan verir. Torpaqdakı suyun səviyyəsi bitki üçün vacibdir. Lənkəran-Astara bölgəsində yaz və yay ayları quru keçdiyindən, bu zaman daha tez-tez suvarmaq lazımdır.

Mərkəzin digər əməkdaşı Aqil Həsənov isə deyib: "Mən fenoloji müşahidə aparıram. Yəni bitki üzərində qönçələr, yarpaqlar, meyvələr göründəndə qeydlər edirəm. Bu, meyvənin yığımının nə vaxt olacağını müəyyənləşdirir. Quayava ildə iki-üç dəfə məhsul verir".

Mərkəzdə meyvə üzərində aparılan elmi-tədqiqatlara əsasən müəyyən edilib ki, Lənkəran-Astara bölgəsi ilə yanaşı, Azərbaycanın digər bölgələrində – Şirvan və Abşeronda da quayava yetişdirilə bilər.

Lənkəran Regional Elmi Mərkəzinin alimləri bu tropik meyvənin digər növlərini yetişdirmək üçün ölkənin iqlim şəraitini də öyrənirlər.

**"Lənkəran"**

# TƏKRAR QARĞIDALI ƏKİNİ KEÇİRİLİR



Ölkəmizin bir çox bölgələrində olduğu kimi, rayonumuzda da təkrar qarğıdalı əkini davam edir. Hazırda fermerlər sahələrdə yeni növ qarğıdalı bitki toxumunun səpinini həyata keçirirlər.

Lənkəran Zona Təcrübə Stansiyası rayonda ilk təşəbbüskar kimi taxıl biçini başa çatdıqdan sonra əkin sahələrindən səmərəli istifadə etmək məqsədilə hibrid qarğıdalı əkininə başlayıb. Hazırda stansiyanın buğda biçin sahələrində təkrar əkin üçün 200 kiloqram hibrid qarğıdalı toxumunun səpini həyata keçirilir.

Əkin prosesi barədə fikirlərini bölüşən Lənkəran Təcrübə Stansiyasının direktoru Həzər Hüseynov qeyd edib ki, hazırda 10 hektar sahədə qarğıdalı əkini aparılır: "Bundan əvvəl həmin sahədə buğda əkilmişdi. İndi isə torpaqdan təkrar istifadə məqsədilə qarğıdalı əkirik. Məhsuldarlığın 30-35 sentner olacağını nəzərdə tutmuşuq".

Təkrar əkinlər həm aqroekoloji baxımdan, həm də iqtisadi baxımdan səmərəlidir. Mütəxəssislər hesab edir ki, respublikada malqaranın yaşıl yemə olan tələbatını tam təmin etmək üçün təkrar əkinlərdən istifadə vacibdir.

Lənkəran Aqrar-Elm Mərkəzinin direktoru Teyyub Rzayev bildirib: "Təkrar qarğıdalı əkini bu il Lənkəran rayonunda "Yaşıl Çay" MMC-nin sahəsində də əkilib. Hazırda 30 hektar sahədə qarğıdalı əkilir. Bundan başqa, bu il Astara rayonunda fermerlərdən biri 4 hektardan çox sahədə qarğıdalı əkir. Ümumilikdə, Lənkəranda 40 hektara yaxın sahədə təkrar qarğıdalı əkilib. Əkin hibrid toxumlarla aparılır. Toxumlar ölkəmizə Krasnodar vilayətindən gətirilib. Bu yeni toxumlar rayonun fermerlərinə və kənd təsərrüfatı müəssisələrinə verilir".

**"Lənkəran"**

# MƏHSULDAR TRİTİKALE BUĞDA SORTU



Lənkəranda tritikale buğda sortu əkilən sahələrdə biçin işləri başa çatıb. Üç il əvvəl "Yaşıl çay" fermer təsərrüfatında sınaq məqsədilə yetişdirilən tritikale buğda sortunun əkin sahəsi ilbəil genişləndirilir.

Buğda və çovdar taxıl növlərinin hibridindən alınmış tritikale taxıl sortu yüksək keyfiyyətli və məhsuldardır, həmçinin heyvandarlıqda da böyük səmərə verir. Fermer Araz Yaqubov bu il 40 hektar sahədə bu taxıl sortunun əkinini həyata keçirib. Hər hektardan yüksək məhsul götürməsi fermeri gələcəkdə əkin sahələrini genişləndirməyə həvəsləndirir: "Hər hektara altı ton yarım məhsul götürdüm. Amma bu taxıl sortunun imkanları daha genişdir. Bir hektara səkkiz ton yarıma qədər məhsul verə bilir. Fermerlərə tövsiyə edərdim ki, bu taxıl sortundan əksinlər. Sərt taxıl sortudur, yumşaq taxıl sortu deyil. Amma məhsuldarlığı digər sortlarla müqayisədə yüksəkdir".

Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutundan əldə olunan elit tritikale sortu yüksək məhsuldarlığına və keyfiyyətinə görə arpadan geri qalmır. Sahələrə vaxtında aqrotexniki qulluq göstərilib və gübrədən istifadə olunmayıb. Bu da biçilən məhsulun tam orqanik olması deməkdir.

"Yaşıl çay" fermer təsərrüfatının rəhbəri Araz Yaqubov qeyd edib ki, taxılı əkdikdən sonra gübrə versəydi, daha çox məhsul götürərdi: "Gübrədən taxılın əkinində istifadə etməmişik. Torpaq şumlandıqdan sonra tam aqrotexniki qulluq göstərilib, alaq otları təmizlənərək əkin işləri aparılıb".

"Aqrolizinq" ASC tərəfindən sahəyə cəlb olunmuş yeni növ taxılbiçən kombayn vasitəsilə məhsul tam itkisiz toplanıb. Yeni kombaynlar nahamar relyefli dağlıq və dağətəyi ərazilərdə dəmyə şəraitində əkilən dənli bitkilərin yığımını digər kombaynlarla müqayisədə daha rahat şəkildə həyata keçirir.

Yeni kombaynlarla bağlı fikirlərini bölüşən mexanizator Nəsrəddin Rüstəmov deyib: "Kombaynın yaxşı işlək sistemi var. Texnikanın monitorunda məhsulun itkisiz yığımı göstərilir. Köhnə kombaynlarla məhsul itkisi 25-30 faiz olurdu".

Aparılan tədqiqatların nəticəsinə görə, tritikale məhsuldar, xəstəliyə davamlı, daha az sahədə bol məhsul verən taxıl növüdür. Heyvandarlıqla məşğul olan aztorpaqlı təsərrüfatçıların tritikale əkininə üstünlük verməsi daha məqsədəuyğundur.

**"Lənkəran"**



# SİTRUS AĞQANADLISINA QARŞI MÜBARİZƏ TƏDBİRLƏRİ

Aqrar Xidmətlər Agentliyinin Lənkəran rayon Bitki Mühafizə Mərkəzinin mütəxəssisləri tərəfindən rayondakı sitrus bağlarına baxış keçirilib, zərərverici və xəstəliklərlə sirayətlənmə ilə bağlı müşahidələr aparılıb, zərərverici və xəstəliklərə qarşı vaxtında mübarizə tədbirlərinin aparılması ilə bağlı fermerlərə məsləhət və tövsiyələr verilib.

Həmçinin, rayonun Separadi ərazi nümayəndəliyinin Tükəvilə kəndində yerləşən 35 hektar sahədə fitosanitar müşahidələr aparılıb. Nəticədə 28.57 hektar sitrus bağında sitrus ağqanadlı ilə sirayətlənmə müşahidə olunub. Sözü gedən ərazidə mütəxəssislər tərəfindən dövlət büdcəsi hesabına hektara 0.700 qram olmaqla "Abachlor SC" preparatı ilə kimyəvi mübarizə tədbirləri aparılıb. Rayonda bu səpkidə müşahidə və mübarizə tədbirləri davam etdirilir.

Qeyd edək ki, zərərvericinin III-IV-yaş sürfələri həmişəyaşıl bitkilərin yarpaqlarında qışlayır. Sürfələr yazda inkişafını başa çatdırır, yetkin hala keçir və cavan yarpaqların alt səthinə tək-tək və qrup halında 60-170 ədəd yumurta qoyur. Təxminən 6-7 gündən sonra yumurtalardan sürfələr çıxır. Onlar üç dəfə qabıq dəyişir və nimfalara çevrilir. Mühit amillərindən asılı olaraq sürfələrin inkişafı 25-30, nimfaların inkişafı isə 15 günə başa çatır. Gürcüstan və Azərbaycan şəraitində zərərverici ildə 3-4 nəsil verir. Ona görə yay mövsümündə, eyni zamanda sitrus ağqanadlısının yumurta, sürfə, nimfa və yetkin fərdlərinə rast gəlinir. Sitrus ağqanadlısı çox geniş yayılmaqla bərabər müxtəlif bitkilər hesabına qidalanır və onlara xeyli ziyan vurur. Bu bitkilər sırasına limon, naringi, portağal, çay, luqustrum (bir göz), dəfnə, xurma, yasəmən, qreypfrut və digərləri daxildir. Zərərvericinin sürfələri yarpaqların şirəsini sormaqla onların saralmasına və qıvrılmasına səbəb olur, digər tərəfdən zərərvericinin şəkərli ifrazatı üzərində saprotrof göbələklər düşərək bitkilərdə gedən fotosintez prosesinin pozulmasına səbəb olur. Aparılan müşahidələr göstərir ki, ətraf mühitin qısa müddətli soyuması (-20 C) zərərvericinin inkişafına mənfi təsir göstərmir. Zərərverici əkin materialı və külək vasitəsilə passiv, bir ağacdan digərinə uçmaqla aktiv yayılır.

**"Lənkəran"**

# "KOB KÖNÜLLÜLƏRİ" LƏNKƏRANDA ÇAY YIĞIMI PROSESİ İLƏ TANIŞ OLUBLAR



İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) Lənkəran "KOB Dostu" ofisinin və Lənkəran Gənclərin İnkişaf və Karyera Mərkəzinin könüllüləri İstisu qəsəbəsində çay yığımı prosesi ilə tanış olublar.

KOBİA-nın dəstək və xidmətlərindən yararlanmış "Yaşıl Çay" Fermer Təsərrüfatının fəaliyyəti ilə tanış olan könüllülər, həmçinin çay yığımında iştirak etməklə bu sahədə praktiki bacarıqlar əldə edib, çayçılığın inkişafına ictimai dəstək nümayiş etdiriblər.

Qeyd edək ki, Lənkəran rayonunun İstisu qəsəbəsində yerləşən "Yaşıl Çay" Fermer Təsərrüfatı KOBİA-nın satış üzrə əlaqələndirmə, ekoturizm, yerli tərəfdaşların tapılması və sahibkarlara göstərilən dövlət dəstəyi mexanizmləri üzrə məsləhət xidmətlərindən istifadə edib.

**"Lənkəran"**

# "SÖZ" JURNALI MƏNƏVİYYAT İŞIĞINDA

Şair-publisist, dramaturq Şəkər Aslan mənim gənclik dostlarımdan idi. Onun bütün uğurlarını izləyib sevindiyim kimi, o da mənim uğurlarımı izləyib sevinirdi. Azərbaycandan kənarda – "Ulyanovskaya Pravda" nəşriyyatında baş direktor işlədiyim zaman müntəzəm məktublaşır, həyatımızdakı yeniliklər barədə bir-birimizi məlumatlandırırdıq. Azərbaycana qayıtdıqdan sonra ilk zəngləşdiyim insanlardan biri Şəkər Aslan oldu.

"Azərbaycan" nəşriyyatında baş direktor işlədiyim ilk aylar idi. Şəkər müəllim mənə zəng vurdu. Prezident Administrasiyasında Cənub zonası üçün və birbaşa onun adına jurnal təsis olunduğunu söylədi və bu işdə şair-publisist, dramaturq Hidayət Orucovun təşəbbüskar olduğunu xüsusi vurğuladı.

Hidayət Orucov o zaman Prezident Administrasiyasında Milli Siyasət Məsələləri üzrə Dövlət müşaviri işləyirdi. Şəkər





müəllim "Söz" adlandırdığı jurnalı Bakıda "Azərbaycan" nəşriyyatında çap etdirmək arzusunda olduğunu bildirdi. Mən də əlimdən gələni edəcəyimi söyləyib, xeyir-duamı verdim.

Bir neçə gün sonra kabinetimə bir qovluq materialla bir xanım gəldi. Şəkər müəllimin adından gəldiyini bildirdi. Zahirən çox cavan görünən xanımın söhbətlərindən peşəkar və işgüzar olduğu aydın sezilirdi. Bir növ aforizm kimi dediyim sözlər sanki onun boyuna biçilmiş, xarakterinə uyğun gəlirdi. "İşi görmək istəyən adam vasitə axtarır, görmək istəməyən bəhanə".

Tanış olduğum xanımın – Sevda Əlibəylinin peşəkarlığına rövnəq verən işgüzarlığı sonrakı iş prosesində öz təsdiqini tapdı. Üzünü ilk dəfə gördüyüm bu xanımın imzası mətbu orqanlardan mənə tanış idi. Bədii və publisistik yazıları Azərbaycan radiosunda da səsləndirilirdi. Sevda xanımın işgüzarlığına bələd olduqca, gördüm ki, Şəkər Aslan kadr seçməyində yanılmayıb.

Jurnalın nəşri ölkənin çətin, demək olar ki, çap materiallarının tapılmayan dövrünə düşmüşdü. Rusiyada Poliqrafiya İnstitutunda və aspiranturasında təhsil alıb, elmi iş müdafiə etdiyimə və uzun illər nəşriyyat direktoru olduğuma, ali məktəblərdə dərs dediyimə görə orada dostlarım çox idi. Həmin dostlarımın təminatı hesabına kağız və digər çap materialları alır, qəzetlərin çapına nail olurduq. "Söz"ə isə dostumun xətrinə xüsusi diqqət göstərirdim. Ara-sıra yumorlu hekayələrlə də jurnalda çıxış edirdim.

Onu da deyim ki, həmin dövrdə qəzetə maraq daha çox idi. Respublikada nəşr olunan jurnalların sayı hədsiz az idi. Odur ki, "Söz"ün işıq üzü görməsi mətbuat mühitində bomba kimi partladı. Azərbaycan Televiziyası da bu münasibətlə xəbər-süjet nümayiş etdirdi. Azərbaycan Radiosu haqqında veriliş hazırladı. Mətbu orqanların bir çoxu demək olar ki, "Söz"dən söz yazdı.

1994-cü ildə "Azərbaycan" nəşriyyatında deyil, başqa yerdə işləyirdim. Amma bir ziyalı olaraq, "Söz"ü və digər mətbu orqanları izləyirdim. Həmin il respublikada heç bir jurnal işıq üzü görmədi. "Söz" isə bir sayla da olsa, oxucuların görüşünə gəldi və yarandığı gündən indiyə kimi "Söz"ün dövriyyəsində heç vaxt fasilə olmayıb.

Respublikada "Söz"dən sonra xeyli jurnal təsis olunub nəşr edildi. Amma heç biri "Söz" ömrü yaşamadı. Bir-iki saydan sonra nəşrlərini dayandırdı.

"Söz" jurnalına ilk yardım olaraq Ulu Öndər Heydər Əliyev büdcədən pul ayırdı. Sonra isə jurnal özünün maliyyə hesabına nəşr olundu.

İndiki dövrdə satış xərci jurnalın borclarını belə ödəyə bilmir. Çap materialları da gündən-günə bahalaşır. Amma "Söz" yaşayır. Bunun əsas səbəbkarı "Söz"ün qayğıkeş anası, peşəsinin fanatı olan Sevda Əlibəylidir. "Anası" sözünü təsadüfən işlətmədim. Sevda xanım mü-sahibələrində də deyir ki, "Söz" mənim birinci, Toğrul ikinci övladımdır.

Sevda xanımın maddi və mənəvi sıxıntılarla üzləşdiyinin də şahidiyəm. Bütün bunları dəf etmək onun jurnalist peşəkarlığından doğan fədakarlığı, sözə ədəbi bağlılığının barizliyidir. Azərbaycanın bölgələrinin səsi, sözü də jurnalda öz əksini tapır.

Jurnal özünün mövzu rəngarəngliyi ilə də olduqca böyük maraq doğurur. "Söz"ün amalı, ana xətti azərbaycançılıq ideyalarının təbliği, xalqa və dövlətə sədaqət və məhəbbət ruhunun tərənnümüdür.

Yazıçı-publisist Sevda Əlibəyli 8 kitabın müəllifidir. Həyat və yaradıcılığımdan bəhs edən "İlk poliqrafçı alim" kitabı 2010-cu ildə sənədli-araşdırma nominasiyası üzrə Milli-Kulturoloji mükafata layiq görüldü. Böyük Vətən müharibəsinin 65 illik Qələbə bayramında kitabı Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevlə iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarı üstündəki görüşdə şəxsən təqdim etdim. Həmin süjet telekanallarda dəfələrlə göstərildi.

Sevda Əlibəylinin may ayının 9-da 60 yaşı tamam oldu. Onun doğum günü Şuşanın işğal tarixi vaxtına düşdüyündən neçə illərdir ki, yeni yaşlarını qeyd etməsə də təqvim həmin günü xatırladır. Eyni zamanda Sevda xanımın yubiley yaşı Milli Mətbuatımızın 145 illiyilə bir vaxta təsadüf etdiyindən "Söz"ün fədakarı üçün ikiqat bayram oldu. Biz də hər iki əlamətdar gün münasibətilə Sevda xanımı təbrik edir, ona sağlam canla uzun ömür, yeni yaradıcılıq uğurları arzulayırıq.



**Şəddat CƏFƏROV,**
**ilk poliqrafçı alim.**

---

## Təbrik edirik!

## ŞÖBƏ MÜDİRİ TƏLTİF OLUNUB



İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamla dövlət qulluğunda səmərəli fəaliyyətinə görə bir qrup şəxs orden və medallara layiq görülüb. Təqdirəlayiq haldır ki, təltif olunanların sırasında Lənkəran Şəhər İcra Hakimiyyətinin hüquq şöbəsinin müdiri Emin Rzaqulu oğlu Quliyev də yer alıb. Ölkə başçısı onu "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edib.

Əməyinə verilmiş yüksək dəyər münasibətilə Emin Quliyevi təbrik edir, ona yeni uğurlar diləyirik!

**"Lənkəran"**

---

## İTMİŞDİR

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 18 iyun tarixli 11 saylı qərarı ilə Üzümçülük kənd sakini **Babayev Məmməd Abbas oğlunun** adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-080 A, kod: 80207016) itdiyi üçün etibarsız sayılır.

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 30 may tarixli 10 saylı qərarı ilə Marso kənd sakini **Şirvanov Mirəziz Səmid oğlunun** adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə (JN-095 A, kod: 80215028) itdiyi üçün etibarsız sayılır.

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 30 may tarixli 10 saylı qərarı ilə Rvo kənd sakini **Əliyev Şirəli Əhməd oğlunun** adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə (JN-101 F, kod:80217018) itdiyi üçün etibarsız sayılır.

---

## ALLAH RƏHMƏT ELƏSİN

Lənkəran şəhər Xarici Dillər Təmayüllü Gimnaziyanın direktoru Mənsur Ağayev və pedaqoji kollektivi gimnaziyanın gənc müəllimi

**Səbinə Babayevanın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Lənkəran şəhər Xarici Dillər Təmayüllü Gimnaziyanın müəllimləri Sara, Nərmin, Günay, Aynur yaxın rəfiqələri

**Səbinə Babayevanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Lənkəran" qəzetinin baş redaktoru Əlimərdan Əliyev və redaksiyanın kollektivi qəzetin şöbə müdiri **Barat Kərimova** qayınanası

**Rəziyyə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri Ülviyyə Əliyeva və şöbənin kollektivi Kosalar kənd əsas məktəbinin direktoru **Kamran Abdullayevə** atası

**Fərhad kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Habil Sadıxov mərkəzin keçmiş işçisi

**Fərhad Abdullayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Baş redaktor Əlimərdan ƏLİYEV

TƏSİSÇİLƏR: Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının aparatı və "Lənkəran" qəzetinin yaradıcı kollektivi

HESAB NÖMRƏMİZ: AZ30AIIB33010019443860238138 VÖEN 2600244411 Kapital Bankın Lənkəran filialı lisenziya № V 343 İndeks: 66920

ÜNVANIMIZ: Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-cü mərtəbə) Telefonlar: 255-35-05, 255-35-49 E-mail: lenkeranqezeti@mail.ru

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "Azərmedia" MMC-nin mətbəəsində çap olunmuşdur. Tiraj: 600